# Bir bahar günü



## Söhbət cəbhə xəttində düşmənin gözünə ox kimi batan Füzulidə kənd təsərrüfatı işlərinin gedişindən, bahar qayğılarından gedir

***❐ Günəşin isti nəfəsi sanki anamız torpağa sığal çəkir. Qarlı, şaxtalı qış günlərindən sonra təbiət də oyanıb. Mexanizator da, pambıqçı da, taxılçı da elliklə tarlaya, iş üstünə çıxıb.Torpağa toxum düşür, gələcək bol məhsulun əsası qoyulur. Kənd də sevinir, kəndli də.***

Cəbhə xəttində yerləşən, düşmənin gözünə ox kimi batan Füzulinin, onun sadə, işgüzar, mərd adamlarının sevinci isə ikiqatdır. Məsələ burasındadır ki, builki yaz-tarla işləri, quruculuq tədbirləri ötən ilin aprel döyüşləri zamanı azad olunmuş doğma torpaqlarımızı da əhatə edir. Vaxtında şumlanmış, arat edilmiş sahələr adamın üzünə gülür. Elə bil ki, ana torpaq da illərlə ayrı düşdüyü əsl sahiblərini görüb sevinir, səpinə, bolluğa, bərəkətə hazır olduğunu pıçıldayır. Kiçik arxların yaxası boyu alışıb-yanan lalələr, sarı, çəhrayı çiçəklər əlvan xalını xatırladır.

Bura Horadiz kəndinin əkin sahələridir. Düzdür, kənd hələ də düşmən əlindədir, ancaq əkin sahələrinin xeyli hissəsi bizdədir. Üstəlik, ötən il aprel döyüşlərindən sonra düşmən böyük itki verərək geri çəkilmiş, nəticədə, yüz hektarla əkin sahələri ordumuzun nəzarəti altına keçmişdir.

Rayonda yaz-tarla işlərinin gedişi barədə yazı hazırlayarkən, ilk olaraq, məhz buradan başlamağımız heç də təsadüfi deyil. Dünənə qədər əkilib-biçilməyən bu torpaqlar indi bolluq-bərəkət mənbəyinə çevrilib. Görünür, bayaqdan iri söyüd ağacına söykənib o tərəfə – **Cocuq Mərcanlıya tərəf baxan Rasim də elə bu barədə düşünürdü:**



– Bax, o gördüyünüz kənd Cocuq Mərcanlıdır, – dedi. –Bizim pambıq, taxıl sahələrinin arası ilə uzanan bu yol da ora gedir. Əvvəllər yol-iz itib-batmışdı. İndi isə görürsünüz, maşınların ardı-arası kəsilmir. Ötən il cəmi 10 hektarda pambıq əkmişdik. Düzdür, məhsuldarlığımız yaxşı olmuşdur – hər hektardan 25 sentner. Ancaq builki hədəflərimiz daha böyükdür. Əvvələ, əkin sahələrini xeyli genişləndirmişik. Özü də təkcə pambıq yox, digər sahələrdə də artım yüksəkdir. Məsələn, biz bu il pambıq əkini sahələrini 153 hektara çatdırmışıq. Əkin, arat və başqa tədbirlər də vaxtında, özü də keyfiyyətlə aparılmışdır.

***– Səpinə nə vaxt başlamaq istəyirsiniz?***

– Aşağı rayonlarla müqayisədə bizim torpaqlar dağətəyidir. Demək istəyirəm ki, havaların xoş keçməsinə baxmayın, torpaq hələ soyuqdur. Mütəxəssislərin, təcrübəli pambıqçıların hesablamalarına görə, bizim sahələrdə səpinə aprel ayının 5-7-si arası başlamaq məsləhətdir. Onu da əlavə edim ki, səpində istifadə ediləcək maşın-mexanizm də start vəziyyətindədir.

***– Bir az da builki hədəfləriniz barədə…***

– Əvvəlcədən onu deyim ki, ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə Saatlıda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində qarşıya qoyulan vəzifələr, respublika rəhbərinin proqram xarakterli çıxışı biz kənd əməkçilərini daha da sevindirmiş, hamımıza əlavə güc və həvəs vermiş, fermerləri yeni uğurlar qazanmağa ruhlandırmışdır. Elə bu gün kollektivlərimizin üzvləri ilə bu məsələləri müzakirə etmişik. Qərara almışıq ki, cari ildə hər hektarın məhsuldarlığını, ən azı, 30 sentnerə çatdıraq. Bu isə o deməkdir ki, ümumi məhsul istehsalı 460 ton olacaqdır.

Alıxanlı kəndi Füzuli rayonunun cəbhə xəttinə ən yaxın olan yaşayış məntəqəsindən biridir. Bu kənddə çox olmuşuq, sözün düzü, hər dəfə də sakinlərin cəsarət və mərdliyinə heyran olmuşuq. Bu, heç də təsadüfi deyil. Elə yerlər var ki, təmas xətti 100 metrlikdən keçir. Əkin-biçin sahələri, örüş yerləri düşmənlə üz-üzədir. Ermani tərəfi elə bir gün olmur ki, atəşkəs rejimini pozmasın, dinc kənd sakinlərinə güllə atmasın. Atəşkəs dövründə bu kənddən şəhid olanlar, yaralananlar olsa da, sakinlər heç nədən qorxub-çəkinmir, əkir-biçir, doğulub-böyüdükləri ata-baba torpaqlarına daha möhkəm bağlanır, özlərinə gün-güzəran qurur, sabaha böyük inam və ümidlə baxırlar.



**Bilirdik ki, rayonun qabaqcıl fermerlərindən biri olan Balaxan Məmmədov bu kənddə yaşayır.** Hansı sahəyə baş çəkdiksə tanış mənzərənin şahidi olduq. Bir qarış da olsun əkilməyən yer görmədik. Onu da öyrəndik ki, əsasən, təcrübəli taxılçı kimi tanınan Balaxan kişi bu il 20 hektarda pambıq yetişdirməyi planlaşdırıb. Özü də bu, digər bitkilərin əkin sahələrinin azaldılması hesabına olmayıb:

– Keçən il taxıl əkini sahələrindən 50 sentnerdən çox məhsul götürdük. Builki hədəflərimiz isə daha böyükdür: Hər hektardan 55 sentner. Pambıqçılıqda da qabaqcıllığı əldən verməyəcəyik. Belə ki, hər hektarın məhsuldarlığını, ən azı, 35 sentnerə çatdıracayıq. Bu isə hələlik rayon üzrə ən yüksək rəqəm hesab olunur. Belə yüksək rəqəmləri səsləndirərkən mən, hər şeydən əvvəl, ölkə Prezidenti İlham Əliyevin kənd əməkçilərinə, fermerlərə, sahibkarlara göstərdiyi gündəlik diqqət və qayğını əsas tuturam. Bizi daha yaxşı işləməyə ruhlandıran, qol-qanad verən də bax budur. Saatlıda Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair respulika müşavirəsi bu dediklərimizə əyani misaldır.

Bura isə Qayıdış qəsəbəsinin yaxınlığındakı əkin sahələridir. Bir tərəfdə taxıl suvarılır, digər tərəfdə isə pambıq əkiləcək sahələrdə son hazırlıq işləri görülürdü. **Oqtay Quliyevlə də burada – pambıq əkiləcək sahədə görüşdük. Hiss olunurdu ki, təcrübəli fermer işlərin gedişindən razıdır.**

– Ötən il biz cəmi 14 hektarda pambıq yetişdirmişdik. Düzdür, məhsuldarlıq yüksək oldu. Belə ki, hər hektardan 33 sentner pambıq götürdük. Ancaq bu, bizi qane etmirdi.



Ona görə ki, həm boş yerimiz, həm də adamlarımızda ənənəvi sahə olan pambıqçılığa böyük maraq və həvəs vardı. Təsadüfi deyil ki, biz bu il pambıq əkini sahələrini 50 hektara çatdırmışıq. Deməli, ümumi məhsul istehsalı keçən ildəkindən dəfələrlə çox olacaq. Bu isə əlavə qazanc, gün-güzəran, firavanlıq deməkdir. Mən, yeri gəlmişkən, dövlət səviyyəsində pambıqçılığa göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkür və minnətdarlığımızı bildirirəm. Ölkə başçısının sədrliyi ilə Saatlı rayonunda keçirilən son müşavirə biz kənd adamlarını daha da ruhlandırmış, yeni, daha böyük uğurlara səfərbər etmişdir.

Biz rayonda olarkən qabaqcıl fermerlərdən Sehran Muradovun, İlham Yusifovun, Ziyad Xanlarovun, Müşfiq Həsənovun və başqalarının da əkin sahələrinə baş çəkdik, yerlərdəki konkret vəziyyətlə tanış olduq. Hər yerdə də kənd əməkçilərini tarlada, iş üstündə gördük. Belə bir vacib cəhət xüsusilə sevindiricidir ki, ənənəvi sahə olan pambıqçılığa həvəs və maraq ildən-ilə artır. Məsələn, Füzuli Rayon İcra Hakimiyyəti Başçısı Aparatının baş məsləhətçisi Vüqar Teymurovun verdiyi məlumata görə, ötən il rayon üzrə cəmi 505 hektarda pambıq əkilmişdirsə, cari ildə artıq 2050 hektarda əkin barədə müqavilə imzalanmışdır. Bu isə hər hektardan 20 sentner olmaqla 4100 "ağ-qızıl", yüzlərlə insanın iş yeri və dolanışığı deməkdir.

Kənd təsərrüfatının digər sahələrində də dinamik inkişaf və yüksəliş diqqəti cəlb edir. Elə taxılçılığı götürək. Son illər rayonda strateji məhsul olan taxılın intensiv əkininə xüsusi diqqət yetirilir. Artıq altıncı ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tondan artıq taxıl istehsal edən rayonları sırasındadır.

Ötən il rayon üzrə 35818 hektarda taxıl əkilmişdir ki, bunun da 23895 hektarı buğda, 11923 hektarı isə arpa olmuşdur. Havaların əlverişli keçməsi və əkin sahələrinə normal aqrotexniki qulluq göstərilməsi taxıl sahələrindən bol məhsul götürülməsinə səbəb olmuşdur. Məhsul çox qısa müddətdə, itkisiz biçilmiş, 121,1 min tondan artıq taxıl əldə edilmişdir. Hər hektarın məhsuldarlığı 34 sentnerə yaxın olmuşdur. Buğda istehsalında isə hektardan 37 sentner məhsul götürülmüşdür.

Builki göstəricilər də yüksəkdir. Belə ki, rayon üzrə 36080 hektarda taxıl əkini aparılmışdır. Sahələrin hazırkı vəziyyəti göstərir ki, cari ildə məhsul istehsalı daha çox olacaqdır.

Ölkə başçısının kənd təsərrüfatı ilə bağlı təsdiq etdiyi Strateji Yol Xəritəsinə uyğun olaraq, artıq rayonda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb. Aqroparkın yaradılması istiqamətində iş aparılır.

Rayonda ənənəvi təsərrüfat sahələrindən olan pambıqçılığın və baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi əhali tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Pambıqçılıq və baramaçılıq ötən əsrin 70-80-ci illərində Füzuli rayonunda ən inkişaf etmiş və gəlirli sahələrdən



hesab olunurdu. 1993-cü ildə rayonun işğal olunması ilə tənəzzülə uğrayan baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi, rayon sakinlərinin bu sahəyə marağını artırıb. 2016-cı ildə kümçülər 3 tondan artıq barama istehsal ediblər. 2017-ci ildə isə bu rəqəmin 30 tona çatdırılması planlaşdırılır.

Rayonda heyvandarlığın inkişaf etdirilməsi və məhsul istehsalının artırılması da diqqət mərəzindədir. Hazırda rayonda 35 min 124 baş iri mal, 141 min 348 baş qoyun-quzu, 360 min baş ev quşları vardır. Ötən il rayonda 2472 ton ət, 23178 ton süd, 6,8 milyon ədəd yumurta, 163 ton yun istehsal edilmişdir. Bunlar isə öz növbəsində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.

Ümumiyyətlə, rayonda 1703 ton kartof, 18036 ton şəkər çuğunduru, 6142 ton tərəvəz, 5456 ton bostan məhsulları, 290 ton üzüm, 94,4 ton günəbaxan, 1164 ton qarğıdalı istehsal olunmuşdur. Sevindirici haldır ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir və respublika bazarına bir sıra məhsullar çıxarılır.

Sahibkarlığın inkişafına da yüksək diqqət yetirilir. Yaradılan şəraitin nəticəsidir ki, yüzlərlə şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur, rayon iqtisadiyyatının möhkəmləndirilməsində yaxından iştirak edir. Onlarla insan istehsal sahəsi və kiçik emal müəssisəsi yaradaraq məhsul bolluğu yaradır, sahibkarlıq fəaliyyətini genişləndirirlər.

… Biz Füzulidə bir bahar günü olduq. Kəndlərə baş çəkdik, fermerlərlə, sahibkarlarla iş üstündə görüşüb söhbət etdik. Adamların arzu və düşüncələri ilə tanış olduq, ürək sözlərini dinlədik. Gördüklərimizə, şahidi olduqlarımıza və müşahidə etdiklərimizə əsasən, deyə bilərik ki, cəbhə xəttində düşmənin, necə deyərlər, ikiaddımlığında olmasına, atəşkəs rejiminin hər gün pozulmasına baxmayaraq Füzulidə həyatın axarı gurdur, yaradıcı və təşəbbüskar ab-hava mövcuddur.



Adamlar həvəslə tikir-qurur, bahar qayğıları ilə yaşayır, bol məhsulun əsasını qoyur, sabaha dərin ümid və inamla baxırlar.

Bərəkətli olsun…

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***